№ 11-12 (819) 30 iyun 2025-ci il · Qəzet 1991-ci ildən nəşr olunur · www.health.gov.az; · www.tibbqazeti.az

# TİBB qəzeti

Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi



Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında Azərbaycan espublikası Prezidentinin Sərəncamı

2



Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

2



Qanunvericiliyə sertifikasiya ilə bağlı dəyişiklik olundu

2

## Bakıda Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresi keçirildi




Bakıda Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin təşkilatçılığı ilə Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresi keçirilib. Türkdilli ölkələrin onkoloqları arasında elmi əməkdaşlığı gücləndirmək məqsədi daşıyan tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

5



## Leyla Əliyeva ÜST-nin yüksəksəviyyəli tədbirində videokonfrans formatında iştirak edib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İslandiyanın paytaxtı Reykyavikdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin təşəbbüsü ilə keçirilən İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının açılış iclasında və ilk hibrid dinləməsində videobağlantı vasitəsilə iştirak və çıxış edib.

Səh. 3

## Nazirlər «Sağlam Radio»nun bir yaşını canlı efirdə təbrik etdilər

*93 FM dalğasında yayımlanan «Sağlam Radio»nun bir yaşı tamam olub*



Səh. 3

Tel: (994 12) 530 15 15
(994 50) 255 15 15
(994 77) 277 22 77
Faks: (994 12) 530 44 44
ARASH
MEDICAL COMPANY



www.arash.az

## «Biliyinə arxayın, cəsarətli və məsuliyyətli həkimlər olun»




4

### Aforizm

*Sözdə bütün insanlar eynidir. Yalnız onların əməlləri fərqləri büruzə verir.*

*Jan Molyer*

# Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının Birinci Konqresinin iştirakçılarına



**Hörmətli Konqres iştirakçıları!**

Türk Dövlətləri Təşkilatına üzv ölkələrin onkoloqlarının Birinci Konqresinin Bakı şəhərində öz işinə başlaması münasibətilə sizi ürəkdən salamlayır, sağlamlığın qorunmasına yönəlmiş nəcib fəaliyyətinizdə hər birinizə müvəffəqiyyətlər arzulayıram.

İnsanların getdikcə daha sıx qarşılaşdıqları sağlamlıq problemlərinə diqqətin artırılması məqsədilə aktual mövzulu ilk belə tədbirin ölkəmizin paytaxtında təşkilini məmnunluq hissi ilə qarşılayır və bunu Azərbaycanda onkoloji xidmətin ötən illər ərzində keçdiyi uğurlu yola, imza atdığı nailiyyətlərə verilən dəyərin xüsusi ifadəsi hesab edirəm.

Azərbaycanın səhiyyə sistemi bu gün müasir müayinə və müalicə üsulları üçün kifayət qədər geniş imkanlar yaradan zəngin maddi-texniki bazaya və yüksək hazırlıqlı kadr potensialına malikdir. Respublikamızda səhiyyənin ayrı-ayrı sahələrinin sürətli inkişafını nəzərdə tutan layihələr və dövlət proqramları ardıcıl icra olunur.

Türk Dövlətləri Təşkilatının ümumi hədəflərə yönəlmiş hərtərəfli əməkdaşlığı təşviq etməsi toplanmış qiymətli təcrübədən ölkələrimizin birgə faydalanmalarının və problemlərin həllində ortaq səyləri gücləndirmələrinin zəruriliyini ön plana çıxarır.

Bu baxımdan, Konqresdə dünyanın müxtəlif guşələrindən gəlmiş qabaqcıl mütəxəssislərin tibb elminin son yenilikləri əsasında birlikdə aparacaqları geniş diskussiya və ətraflı müzakirələrin Türk Dövlətləri Təşkilatına üzv ölkələrin səhiyyə qurumları qarşısında duran məsələlərin bir çox mühüm aspektlərini əhatə etməsi təqdirə layiqdir.

İnanıram ki, Konqresiniz elmi və praktiki əhəmiyyəti ilə mövcud müalicə metodlarının daha da təkmilləşdirilməsi işinə öz töhfəsini verəcək, Türk dünyası ölkələri onkoloqlarının gələcək qarşılıqlı fəaliyyətinin başlıca prioritetlərini müəyyən edəcəkdir.

**Ən xoş arzularla,**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 13 iyun 2025-ci il*

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası»nda dəyişiklik edilməsi haqqında

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli Qərarı ilə təsdiq edilmiş «Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na aşağıdakı məzmunda 3.7-ci bənd **əlavə edilsin:**

«3.7. Dərman vasitələrinin idxalını həyata keçirən hüquqi şəxs ölkə daxilində dərman vasitəsinin aptek təşkilatlarına topdansatışını digər topdansatış əczaçılıq müəssisəsi vasitəsilə həyata keçirdiyi təqdirdə, bu Qaydanın 3.4-cü bəndi ilə müəyyən olunan «Topdansatış əczaçılıq müəssisəsi üçün əlavə»nin 40 faizinədək hissəsini dərman vasitəsinin aptek təşkilatına birbaşa topdansatışını həyata keçirən həmin topdansatış əczaçılıq müəssisəsinə ödəyir.».

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 3 iyun 2025-ci il*




## Akademik Mustafa Topçubaşovun 130 illiyinin qeyd edilməsi haqqında

***Azərbaycan Respublikası Prezidentinin Sərəncamı***

2025-ci ilin avqust ayında Azərbaycan Respublikası Elmlər Akademiyasının təsisçilərindən biri, görkəmli alim və tanınmış ictimai xadim, tibb elmləri doktoru, SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, akademik Mustafa Ağabəy oğlu Topçubaşovun anadan olmasının 130 ili tamam olur.

Akademik Mustafa Topçubaşov çoxşaxəli və dolğun fəaliyyəti ilə ziyalılığın parlaq nümunəsini yaratmış böyük nüfuza malik şəxsiyyətdir. O, Azərbaycan tibb elminə mühüm nailiyyətlər qazandırmış, tibb təhsili və səhiyyə sisteminin müasir əsaslar üzərində qurulması işinə misilsiz töhfələr vermişdir. Mustafa Topçubaşov respublikada cərrahlıq elmi məktəbinin banilərindəndir. Təbabətin müxtəlif sahələri üzrə müalicə texnologiyalarının və cərrahi problemlərin kompleks şəkildə öyrənilməsi yenilikçi alimin fundamental araşdırmalarının başlıca istiqamətlərini təşkil etmişdir. Praktiki cərrahiyyədə geniş yayılmış orijinal müalicə üsullarının tətbiqi və beynəlxalq miqyasda Azərbaycan cərrahiyyəsinin layiqincə təmsil olunması Mustafa Topçubaşovun adı ilə sıx bağlıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanda səhiyyənin və tibb elminin inkişafında xüsusi xidmətlərini nəzərə alaraq, akademik Mustafa Topçubaşovun anadan olmasının 130 illiyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə akademik Mustafa Topçubaşovun 130 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 10 iyun 2025-ci il*

## Qanunvericiliyə sertifikasiya ilə bağlı dəyişiklik olundu

**Milli Məclisin növbədənkənar sessiyasının spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən növbəti iclasında qanunvericiliyə tibb işçilərinin sertifikasiyası ilə bağlı dəyişiklik olunub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov Azərbaycan Respublikasının Əmək Məcəlləsində, «Əhalinin sağlamlığının qorunması haqqında», «Özəl tibb fəaliyyəti haqqında» və «Dərman vasitələri haqqında» qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. O, sənədin ikinci oxunuşda plenar iclasda qəbul edilməsindən sonra əlavə heç bir təklifin daxil olmadığını söyləyib və sənədin dəstəklənməsini xahiş edib.

*(Davamı 3-cü səhifədə)*

# Leyla Əliyeva ÜST-nin yüksəksəviyyəli tədbirində videokonfrans formatında iştirak edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva İslandiyanın paytaxtı Reykyavikdə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə Regional Ofisinin təşəbbüsü ilə keçirilən İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının açılış iclasında və ilk hibrid dinləməsində videobağlantı vasitəsilə iştirak və çıxış edib.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva çıxışı zamanı COP29-un ev sahibi Azərbaycanın bu sahədə atdığı addımlar, qazandığı təcrübə və həyata keçirdiyi təşəbbüslər barədə məlumat verib. Bildirib ki, iqlim dəyişikliyi təkcə ekoloji deyil, eyni zamanda, ictimai sağlamlıq baxımından da ciddi qlobal çağırışlardan biridir. O, ölkəmizdə su ehtiyatlarının idarə olunması, ətraf mühitin mühafizəsi və iqlimə davamlılıq üzrə reallaşdırılan layihələrdən bəhs edib.




Leyla Əliyeva həmçinin IDEA İctimai Birliyi tərəfindən irəli sürülən müxtəlif təşəbbüslərlə gənclərin iqlim və sağlamlıq mövzularında fəallığının artırılmasının vacibliyini qeyd edib və beynəlxalq təşkilatları bu istiqamətdə geniş əməkdaşlığa çağırıb.

Sonra tədbirdə çıxış edən ÜST-nin Avropa üzrə regional direktoru Hans Klüge Azərbaycanın COP29 çərçivəsində göstərdiyi liderliyi və təşəbbüskarlığı yüksək qiymətləndirdiklərini bildirib. O vurğulayıb ki, Azərbaycan yalnız regionda deyil, həm də beynəlxalq səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə fəal mövqe tutur və nümunəvi yanaşmalar nümayiş etdirir. Hans Klüge həmçinin iqlim dəyişikliyi və ictimai sağlamlıq sahələrində həyata keçirilən layihələrə verdiyi töhfələrə görə Leyla Əliyevaya təşəkkürünü ifadə edib.

Qeyd edək ki, ÜST-nin Avropa üzrə Regional Ofisi tərəfindən yaradılan İqlim və Sağlamlıq üzrə Pan-Avropa Komissiyasının məqsədi iqlim dəyişikliyinin insan sağlamlığına təsirlərini diqqət mərkəzinə gətirmək, sahələrarası əməkdaşlığı gücləndirmək və bu istiqamətdə konkret fəaliyyət mexanizmləri formalaşdırmaqdır. Reykyavikdə keçirilən rəsmi açılış iclası ilə Komissiya öz fəaliyyətinə rəsmən start verib.

# Qanunvericiliyə sertifikasiya ilə bağlı dəyişiklik olundu

*(Əvvəli 2-ci səhifədə)*

Layihədə nəzərdə tutulan dəyişikliyə əsasən, sertifikasiya şəhadətnaməsinin



əldə edilməsi üçün tibb mütəxəssislərinin öz seçimlərindən asılı olaraq, 5 ildə bir dəfə imtahanda iştirak etməsi və ya elmi, pedaqoji və digər tədris fəaliyyətləri ilə məşğul olmaqla davamlı peşəkar inkişafını (DPİ) həyata keçirməsi təklif olunur. Sertifikasiya imtahanından keçməyən işçilərin 6 ay müddətində iş yerinin və aylıq vəzifə maaşının saxlanılması müəyyən edilir.

Əmək və sosial siyasət komitəsinin üzvü Soltan Məmmədov məsələ barədə bu komitənin müsbət rəyini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Parlamentin növbədənkənar sessiyasının digər plenar iclasında İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rövşən Muradov «Yaşayış minimumu haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. Millət vəkili məsələyə ikinci oxunuşda baxıldıqdan sonra deputatlar tərəfindən hər hansı təklif daxil olmadığına görə layihənin olduğu kimi səsə qoyulmasını xahiş edib.

Qanuna təklif olunan dəyişikliklərdə ölkə ərazisində tibb, təhsil və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normalarının yenilənməsinin hüquqi əsasının yaradılması və yeni qida normalarının müəyyən edilməsi nəzərdə tutulur.

Dəyişikliyə əsasən, Qanuna «Minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normaları müəyyən edilir» məzmunlu yeni maddə əlavə olunub.

Hazırda qeyd edilən müəssisələrdə qida normaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 9 mart tarixli qərarına uyğun olaraq müəyyən edilir. Həmin normaların müəyyənləşdirildiyi tarixdən uzun müddət keçməsinə baxmayaraq, bu normalarda mahiyyəti üzrə ciddi dəyişiklik edilməyib. Bu baxımdan, adıçəkilən müəssisələrdə istifadəsi məqsədəuyğun olan qida məhsullarının çeşidliliyinin minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibinə uyğunlaşdırılmasına, həmçinin müxtəlif növ xəstəliklərin müalicə metodikasından irəli gələrək tibb müəssisələrində yeni qida normalarının müəyyən edilməsinə ehtiyac yaranıb.

Qanunun qəbulundan sonra minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibi əsasında tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin yeni qida normaları təsdiqlənəcək.

Müzakirələrdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

# Nazirlər «Sağlam Radio»nun bir yaşını canlı efirdə təbrik etdilər




**93 FM dalğasında yayımlanan «Sağlam Radio»nun bir yaşı tamam olub.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat verir ki, səhiyyə naziri Teymur Musayev və gənclər və idman naziri Fərid Qayıbov «Sağlam Radio»nun bir yaşı münasibətilə «Sağlam səhər» verilişinin xüsusi qonaqları olublar.

Nazirlər radionun səhər və axşam efirlərində sağlam həyat tərzi, düzgün qidalanma, idman və psixoloji sağlamlıq, müxtəlif xəstəliklər haqqında maarifləndirici mövzuların geniş müzakirəsinin aparıldığını, ictimaiyyətə dəyərli məlumatlar çatdırıldığını vurğulayaraq, bir il ərzindəki fəaliyyəti yüksək qiymətləndiriblər.

Səhiyyə naziri Teymur Musayevin sözlərinə görə, «Sağlam Radio» sübut etdi ki, sağlamlıq haqqında danışmaq sadə, asan, həm də faydalıdır: «Bu platformada mütəxəssislər ən mürəkkəb mövzuları hər kəs üçün anlaşılan tərzdə izah edirlər».

Gənclər və idman naziri Fərid Qayıbov radionun idman və aktiv həyat tərzinin təşviqindəki rolunu xüsusi vurğulayıb: ««Sağlam Radio» yalnız informasiya vermir, həm də insanları aktiv həyata, sağlam yaşamağa sövq edir. Burada müzakirə olunan mövzular və idman barədə aparılan səmimi söhbətlər gənclər tərəfindən də maraqla dinlənilir».

Qeyd edək ki, «Sağlam Radio»da saat 08:00-dan 10:00-dək yayımlanan «Sağlam səhər» və axşam 18:00-dan 20:00-dək efirdə olan «Sağlam həyat» verilişlərinin bundan sonrakı fəaliyyətində də əsas istiqamət sağlam həyat tərzinin təbliği olacaq.

# «Biliyinə arxayın, cəsarətli və məsuliyyətli həkimlər olun»

*Səhiyyə naziri Tibb Universitetinin məzunlarına çağırış etdi*

**Azərbaycan Tibb Universitetində (ATU) ənənəvi «Məzun Günü» qeyd olunub.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tanınmış ictimai-siyasi xadimlərin, universitet rəhbərliyinin, səhiyyə işçilərinin və digər rəsmi qonaqların iştirak etdiyi tədbir Dövlət Himninin səsləndirilməsi ilə açıq elan olunub.




Açılış nitqi ilə çıxış edən səhiyyə naziri Teymur Musayev məzunları təbrik edib, bu günün onların həyatında unudulmaz bir tarix kimi qalacağını deyib.




Nazir çıxışında ölkədə səhiyyənin inkişafı, tibb təhsilinin gücləndirilməsi istiqamətində atılan addımlardan söz açıb. O vurğulayıb ki, əhalinin sağlamlığının qorunması Azərbaycan dövlət siyasətinin prioritet istiqamətlərindəndir, ölkəmizdə tibb təhsili görkəmli şəxsiyyətlərin diqqət və qayğısı ilə inkişaf edib: «Ulu Öndər Heydər Əliyev səhiyyə sisteminin formalaşması və inkişafı üçün mühüm qərarlar verib. ATU-nun yeni tədris korpusunun inşası və ilk tədris klinikasının yaradılması da məhz onun adı ilə bağlıdır. Görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanı da ATU ilə qırılmaz tellər bağlayıb. Onun tibb elmi və təhsilinə verdiyi töhfələr bu sahədə mənəvi örnəkdir».

Dövlətin səhiyyənin inkişafını daim diqqət mərkəzində saxladığını vurğulayan Teymur Musayev qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə səhiyyə sahəsində mühüm nailiyyətlər əldə olunur, infrastruktur müasirləşdirilir, tibbi xidmətin keyfiyyəti yüksəldilir. Birinci vitse-prezident Mehriban Əliyevanın tibb işçilərinə göstərdiyi xüsusi diqqət və qayğı bu sahəyə verilən dəyərin təzahürüdür və səhiyyənin inkişafına töhfələr verir.

AZƏRTAC-ın verdiyi məlumata görə, səhiyyə naziri diqqətə çatdırıb ki, Azərbaycan səhiyyəsi üçün yüksəkixtisaslı kadrların hazırlanması daim prioritetdir. ATU-nun hər buraxılışı ölkənin səhiyyə sisteminin inkişafında mühüm rol oynayır. Bu sahədə aparılan islahatlar müasir tələblərə cavab verən tibb işçilərinin hazırlanmasını və onların üzərinə düşən böyük məsuliyyəti bir daha önə çıxarır.

Məzunlara çağırış edən nazir Teymur Musayev onları biliklərinə arxayın, cəsarətli və məsuliyyətli həkimlər olmağa səsləyib. Onların yalnız peşəkar deyil, həm də mənəvi məsuliyyət daşıyan qəhrəman kimi fəaliyyət göstərməsinin vacib olduğunu vurğulayıb: «Həkimlər gündəlik həyatın qəhrəmanlarıdır. Öz biliklərinizə arxayın olun, cəsarətli və məsuliyyətli həkimlər kimi fəaliyyət göstərin. Bu çətin, lakin şərəfli yolda sizə uğurlar arzulayıram. Bir həmkar kimi aramıza xoş gəldiniz!»

Tədbirdə ATU-nun rektoru professor Gəray Gəraybəyli də çıxış edərək məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb və onlara universitetin adını daim uca tutmağı tövsiyə edib.

Tədbir zamanı 2024-2025-ci tədris ilində məzun olan tələbələrin statistikası açıqlanıb. Bildirilib ki, bu il ATU-dan 1235 tələbə məzun olub. Onlardan 853 nəfəri Azərbaycan vətəndaşı, 382 nəfəri isə əcnəbidir. Məzunlardan 356 nəfər I Müalicə-profilaktika fakültəsini, 310 nəfər II Müalicə-profilaktika fakültəsini bitirib, 40 nəfər «Tibbi profilaktika», 61 nəfər «İctimai səhiyyə», 34 nəfər «Fizioterapiya və tibbi reabilitasiya» ixtisası üzrə təhsil alıb. «Tibb bacısı işi» ixtisası ilə 32 nəfər, «Stomatologiya» ixtisası ilə 250 nəfər, «Əczaçılıq» ixtisası ilə 95 nəfər bu il bu ali məktəbdən məzun olub. 2024-2025-ci tədris ilində 48 nəfər «Hərbi həkim», 45 nəfər «Hərbi feldşer», 9 nəfər isə bu il ilk dəfə məzun verən «Hərbi stomatologiya» ixtisası ilə ATU-nu bitirib.

Bildirilib ki, hazırda ATU-da Azərbaycanın milli kadrları ilə yanaşı, Türkiyə, Pakistan, Qazaxıstan, Gürcüstan və 45 digər ölkədən çoxsaylı tələbələr təhsil alır.

Tədbirdə çıxış edən professor-müəllim heyəti və valideynlər gənc həkimləri təbrik edib, onların bu şərəfli adı ləyaqətlə daşıyacaqlarına əminliklərini ifadə ediblər.

Məzunlar ənənəyə uyğun olaraq Hippokrat andı içib, əhalinin sağlamlığının keşiyində duracaqlarına söz veriblər.

Səhiyyə naziri Teymur Musayev və rektor Gəray Gəraybəyli Fərqlənmə diplomlarını sahiblərinə təqdim ediblər.

Tədbir sənət adamlarının iştirakı ilə təşkil olunmuş konsert proqramı ilə başa çatıb. Tələbələr də səhnədə çıxış edərək tanınmış ifaçılarla birgə bayram ovqatını bölüşüblər. Universitetin Hərbi fakültəsinin tələbələrinin vətənpərvərlik ruhunda ifaları tədbirə xüsusi rəng qatıb.

# Səhiyyə naziri: «İnanıram ki, bugünkü məzunlar Azərbaycan səhiyyəsinin inkişafında mühüm rol oynayacaqlar»

*1 nömrəli Bakı Tibb Kollecində «Məzun günü» keçirilib*

**Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə 1 nömrəli Bakı Tibb Kollecinin tələbələrinin təntənəli «Məzun günü» tədbiri keçirilib. Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə tanınmış ictimai-siyasi xadimlər, səhiyyə işçiləri və digər qonaqlar iştirak ediblər.**



«Məzun günü» Dövlət Himninin səsləndirilməsi, Ümummilli Lider Heydər Əliyevin, həmçinin Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başlayıb.

Səhiyyə naziri Teymur Musayev məzunları əlamətdar gün münasibətilə təbrik edərək, onların Azərbaycan səhiyyəsinin inkişafında mühüm rol oynayacaqlarına inamını ifadə edib: «Bu gün gərgin zəhmətinizin, yuxusuz gecələrinizin və təhsilə olan sədaqətinizin nəticəsidir. Bu tarixdən etibarən siz Azərbaycanın sağlam gələcəyi naminə şərəfli və məsuliyyətli missiyaya başlayırsınız. Orta tibb işçiləri tibbi xidmətin əsas sütunudur və onların peşəkarlığı səhiyyəmizə ciddi töhfə verir».

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın səhiyyəyə göstərdikləri xüsusi qayğını vurğulayan nazir qeyd edib ki, aparılan islahatlar və infrastruktur yenilənməsi nəticəsində ölkədə tibbi xidmətlərin keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlib.

AZƏRTAC xəbər verir ki, Teymur Musayev 1 nömrəli Bakı Tibb Kollecinin zəngin ənənələrə və maraqlı inkişaf yoluna malik olduğunu diqqətə çatdırıb. Kollecin keçdiyi tarixi yola nəzər salan nazir qeyd edib ki, təhsil müəssisəsinin əsası 1902-ci ildə mamaçalıq məktəbi kimi qoyulub. O vaxtdan etibarən bir çox mərhələləri keçən kollecin inkişafında tanınmış həkimlər, o cümlədən görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyeva və Mustafa Hacıqasımov kimi şəxsiyyətlər mühüm rol oynayıblar. Teymur Musayev görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın bu təhsil ocağındakı fəaliyyətini xüsusi qeyd edərək bildirib: «Zərifə xanımın 1962-1969-cu illərdəki fəaliyyəti bu kollecin tədris səviyyəsinin yüksəlməsində mühüm rol oynayıb».

Səhiyyə naziri vurğulayıb ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə səhiyyə sahəsinə, o cümlədən tibb kadrlarının yetişdirilməsinə böyük önəm verilib. Bu siyasət bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən uğurla davam etdirilir.

Orta tibb işçilərini səhiyyə sisteminin əsas sütunlarından biri adlandıran nazir deyib ki, bu peşəyə gələn gəncləri humanist dəyərlər, insanlara yardım etmək arzusu birləşdirir: «Məzunların qazandığı uğurların arxasında gərgin zəhmət, fədakarlıq və peşəyə olan böyük maraq dayanır».

Sonda səhiyyə naziri kollecin müəllim heyətinə və valideynlərə təşəkkürünü bildirib. Məzunların yetişməsində əməyi olan pedaqoqların zəhmətini yüksək qiymətləndirib.

Daha sonra kollecin direktoru Nailə Əliyeva da məzunları təbrik edib, onların həm savadlı tibb işçisi, həm də məsuliyyətli vətəndaş kimi formalaşmasının təməl hədəf olduğunu qeyd edib. «İnanıram ki, məzunlarımız dövlətçiliyimizə və səhiyyəmizə sədaqətlə xidmət göstərəcək, kollecin adını daim uca tutacaqlar.»

Tədbirin sonunda məzunlar Hippokrat andı içərək, xalqa sədaqətlə xidmət edəcəklərinə söz veriblər. Təhsildə fərqlənən tələbələrə fəxri fərmanlar təqdim olunub.

Rəsmi hissədən sonra tədbir bədii proqramla davam edib.

# Bakıda Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresi keçirildi

**Bakıda Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin təşkilatçılığı ilə Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresi keçirilib.**



AZƏRTAC xəbər verir ki, türkdilli ölkələrin onkoloqları arasında elmi əməkdaşlığı gücləndirmək məqsədi daşıyan tədbirdə əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Milli Onkologiya Mərkəzinin Baş direktoru akademik Cəmil Əliyev Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresini açıq elan edib.

Akademik bildirib ki, Konqresdə dünyanın 10 ölkəsini, həmçinin yerli və beynəlxalq təşkilatları təmsil edən alimlər, mütəxəssislər və rəsmi şəxslər iştirak edirlər.



Cəmil Əliyev qeyd edib ki, bu tədbir səhiyyənin onkologiya sahəsinin bu günü və gələcəyi üçün olduqca önəmlidir: Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresi iştirakçı ölkələrdə onkoloji xidmətin təşkilinin müzakirəsi, təcrübə və bilik mübadiləsinin aparılması, onkologiyanın aktual problemlərinin birgə həlli yollarının hazırlanması üçün mühüm platforma rolunu oynayacaq. Əminəm ki, Konqresin nəticələri bizi onkologiya sahəsində əməkdaşlığa bir addım da yaxınlaşdıracaq. Bu səbəbdən Konqresin yüksək səviyyədə keçəcəyinə inanır və uğurlar arzu edirəm», - deyə Baş direktor əlavə edib.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva Prezident İlham Əliyevin Konqres iştirakçılarına təbrik məktubunu oxuyub.

Konqresdə çıxış edən Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev bildirib ki, qlobal səviyyədə əhalinin yaşlanması, ətraf mühit amilləri, müxtəlif həyat tərzi nəticəsində xərçəng xəstəliyinin dinamikasında artım müşahidə olunur. Nazir qeyd edib ki, 2022-ci ildə dünyada xərçəngə 20 milyon yeni tutulma halı aşkar edilib. Dünya əhalisinin hər 5 nəfərdən biri yaşam müddətində xərçəng xəstəliyinə tutulur. Hər il təxminən 400 min uşağa xərçəng diaqnozu qoyulur. 1960-cı illərdə uşaqların xərçəngdən sağalma faizi 10 idisə, hazırda bu rəqəm 90-nın üzərindədir. Ölkəmizin onkologiya sahəsində elmi potensialının böyük bir qisminin cəmləşdiyi Milli Onkologiya Mərkəzində onkoloji xəstəliklərin profilaktikası, aşkarlanması və müalicəsi üzrə işlər uğurla həyata keçirilir. Son illərdə Milli Onkologiya Mərkəzi beynəlxalq əlaqələri daha da genişləndirir. Bugünkü tədbir də bunun bariz nümunəsidir», - deyə Teymur Musayev əlavə edib.

Nazirin sözlərinə görə, Azərbaycanda onkoloji xəstəliklər sahəsində statistik göstəricilər də bu sahədə müsbət dinamikadan xəbər verir. «Erkən aşkarlama faizi, ömür uzunluğu və digər göstəricilər əsasında ölkəmizdə onkoloji xidmətin effektivliyini bəyan etmək olar. Ən əsası, bu gün artıq Azərbaycanda onkoloji xəstəliklərə münasibət dəyişib, onkoloji diaqnoz artıq müalicəyə çağırış kimi qəbul olunur. Bu müalicənin əsas məqsədi tək insan həyatını qorumaq deyil, həm də onun həyat keyfiyyətini təmin etməkdir. Bütün bunlar isə Azərbaycanın onkoloji xidmətinin və onun 85 yaşlı flaqmanı olan Milli Onkologiya Mərkəzinin doğru yolla inkişaf etməsinin göstəricisidir», - deyə o vurğulayıb.

Türkdilli Dövlətlər Birliyi Onkoloqlarının Birinci Konqresinin yüksək səviyyədə təşkilinin onkologiya sahəsində əməkdaşlığa verilən əhəmiyyətin bariz nümunəsi olduğunu qeyd edən Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev göstərdiyi birgə səylərə və dəstəyə görə Azərbaycana dərin təşəkkürünü bildirib. O qeyd edib ki, türk dövlətləri arasında bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də əməkdaşlıq genişlənir və güclənir. Türk dövlətlərinin gələcəyə baxışı bizə daha sıx əməkdaşlığa malik, güclü və səmərəli təşkilata çevrilmək imkanı verir. Ötən ilin oktyabr ayında Şuşada keçirilən TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası zamanı imzalanmış Birgə Bəyannamə əməkdaşlığımızı yeni mərhələyə qaldırıb. Bu ilin aprelində Astanada təşkil olunan növbəti görüş isə bir daha qətiyyətimizi nümayiş etdirib. Həmin görüş çərçivəsində Ümumdünya Səhiyyə Təşkilatı ilə imzalanmış Anlaşma Memorandumu da bu yolda mühüm addımlardan biri olub», - deyə Baş katib diqqətə çatdırıb.

O əlavə edib ki, xərçəng təkcə ayrı-ayrı fərdləri deyil, bütövlükdə səhiyyə sistemlərini çətin vəziyyətə sala bilən ciddi qlobal problemdir. Bu səbəbdən profilaktik tədbirlərin gücləndirilməsi, vaxtında diaqnostika və keyfiyyətli müalicə imkanlarının bütün vətəndaşlar üçün əlçatan olması ən vacib hədəflərdən biri olmalıdır.

Bu Konqresdə Türk dünyasının son dərəcə vacib olan tarixi hadisəyə şahidlik etdiyini vurğulayan Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov xatırladıb ki, türk birliyi, Türk Dövlətləri Təşkilatının yaradılması Ulu Öndər Heydər Əliyevin ən ümdə arzularından biri olub: Türk Dövlətləri Təşkilatının ilk dəfə məhz Naxçıvanda elan olunması Ulu Öndərin apardığı siyasətin nəticəsi kimi qiymətləndirilməlidir. Həmin siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir».

Əhliman Əmiraslanov Türkdilli dövlətlərin onkoloqlarının ortaq qurumunun yaradılması təklifi ilə çıxış edib: Türk dünyasının çox aktiv və uğurla fəaliyyət göstərən qurumları var. Türkdilli dövlətlərin onkoloqlarının assosiasiyasının yaradılması və fəaliyyəti belə tədbirlərin dövri olaraq hər il keçirilməsi üçün zəmin yaradacaq».

Tədbirdə çıxış edən Qazaxıstan Onkologiya və Radiologiya Elmi Tədqiqat İnstitutunun İdarə Heyətinin sədri Yerbol Bekmuxambetov, Qazaxıstan Milli Elmi Onkologiya Mərkəzinin İdarə Heyətinin sədri Jandos Burkitbayev, Qırğızıstan Milli Onkologiya və Hematologiya Mərkəzinin direktoru Nurbek Bukuyev, Avrasiya Onkologiya Cəmiyyətinin sədri Hilmi Kodaz, Özbəkistan Respublikası İxtisaslaşdırılmış Onkologiya və Radiologiya Elmi-Praktik Tibb Mərkəzinin direktoru Mirzaqolib Tillaşayxov, Türkmənistan Elmi-Klinik Onkologiya Mərkəzinin direktoru Mive Berdımuradova və Tacikistan Respublikası Onkologiya Elmi Mərkəzinin nümayəndəsi Jumaboy Sanginov onkologiyanın dünyada qlobal problemə çevrildiyini bildirib, eyni zamanda, son 10-15 ildə təbabətdə sürətli inkişafın baş verdiyini qeyd ediblər. Türkdilli ölkələrin xərçəngin erkən diaqnostikasında, onkoloji xəstəliklərlə mübarizə sahəsində təcrübəsini bölüşməsi, ortaqlıqların dərinləşdirməsi baxımından Konqresin əhəmiyyətinin böyük olduğunu diqqətə çatdırıblar. Konqresin ölkələrarası elmi əməkdaşlığın gücləndirilməsinə təkan verəcəyi, onkologiya sahəsində xidmətlərin daha da təkmilləşdirilməsinə imkan yaradacağı vurğulanıb. Çıxış edənlər ikinci konqresin təşkil olunacağı ölkəni müəyyənləşdirmək üçün püşkatmanın keçirilməsini də təklif ediblər.

Azərbaycanda bu formatda tarixdə ilk dəfə reallaşan Konqresin gedişində türkdilli dövlətlər arasında onkologiya sahəsi üzrə elmi əməkdaşlığa dair memorandum da imzalanıb. Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistanın imzaladığı memorandumda onkoloqların təcrübə mübadiləsi, elmi-praktik fəaliyyətin birlikdə davam etdirilməsi, elmi işlərin bir yerdə aparılması nəzərdə tutulub.

Tədbir panel iclaslarla davam edib.

Qeyd edək ki, Konqresdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, həmçinin Amerika Birləşmiş Ştatları, Almaniya, Tacikistan və Gürcüstandan olan nümayəndələr türkdilli ölkələrdə, eləcə də dünyanın bu sahədə böyük təcrübəsi olan dövlətlərində onkoloji xidmətlərin təşkili ilə bağlı çıxışlar edib, baş-boyun şişlərinin müalicəsi və profilaktikası, torakal onkologiya, süd vəzi xərçəngi və digər mövzularda mühazirələr oxuyub, fikir mübadiləsi aparıblar.

İkigünlük tədbirdə klinik onkologiyaya aid mövzular, onkoloji xəstəliklərin diaqnostikası və müalicəsi məsələləri geniş müzakirə olunub.

**Ümummilli Lider Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncama əsasən, hər il iyunun 17-si - 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının Səhiyyə Nazirliyinin yaradıldığı gün ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.**

# Səhiyyə Nazirliyi Tibb İşçilərinin Peşə Bayramı Gününü qeyd edib








Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tibb işçilərinin peşə bayramı ilə əlaqədar səhiyyə naziri Teymur Musayev, nazirliyin rəhbərliyi, aparatı və tabeliyindəki müəssisələrin rəhbər şəxsləri Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın, böyük alim, ictimai-siyasi xadim, səhiyyə təşkilatçısı Əziz Əliyevin və tanınmış elm xadimi Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər düzülüb.

Səhiyyə Nazirliyinin kollektivi həmçinin Şəhidlər xiyabanını ziyarət edərək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsini hörmət və ehtiramla yad edib.

# Səhiyyə Nazirliyi iki yeni elektron sistemini istifadəyə verib

**Səhiyyə Nazirliyində «Dövlət qulluqçusunun rəqəmsal iş yeri - İntranet» və «Səhiyyə sisteminin, vətəndaşların sağlamlıq vəziyyətinin təhlili və monitorinqi» adlı yeni elektron sistemlərin təqdimatı keçirilib.**



Nazirliyin mətbuat xidmətinin verdiyi xəbərə görə, təqdimatda giriş sözü ilə çıxış edən səhiyyə naziri Teymur Musayev qeyd edib ki, bu təşəbbüs dövlətin rəqəmsallaşma sahəsindəki strateji prioritetlərinə cavab verir: «Möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda rəqəmsal hökumətə keçidin sürətləndirilməsi və iqtisadiyyatın diversifikasiyası məqsədilə ardıcıl tədbirlərin həyata keçirilməsi istiqamətində mühüm addımlar atılıb. Səhiyyə Nazirliyi milli səhiyyə sistemində müasir dövrün tələbi və innovativ düşüncə məhsulu olan rəqəmsal səhiyyə ekosisteminin inkişafı ilə bağlı tədbirləri davam etdirir».

Nazirin sözlərinə görə, rəqəmsal texnologiyaların inkişafı səhiyyə xidmətlərinə və məlumatlarına çıxışın yaxşılaşdırılmasında mühüm rol oynayır. Bildirilib ki, vətəndaşların sağlamlığının, eyni zamanda, səhiyyənin təhlili və monitorinqi sisteminin vahid rəqəmsal landşafta inteqrasiyası əhalinin sağlamlığının yaxşılaşdırılması, habelə səhiyyə müəssisələrinin fəaliyyətinin optimallaşdırılması üçün əsaslandırılan qərarların qəbuluna dəstək olacaq.

Teymur Musayev həmçinin qeyd edib ki, tibbi xidmətlərin əlçatanlığının və dəqiqliyinin artırılması üçün rəqəmsal həllərin tətbiqi qarşıda duran prioritet məsələlərdən biridir. «Perspektivdə göstərilən dövlət xidmətlərindən məmnunluğun artırılması və keyfiyyətli tibbi xidmətlərin təmin edilməsi məqsədilə səhiyyənin rəqəmsal transformasiyası tədbirləri davam etdiriləcək», - deyə nazir fikrini tamamlayıb.

Tədbirdə çıxış edən səhiyyə nazirinin müşaviri Rüfət Hacıəlibəyov bildirib ki, ötən il ərzində Rəqəmsal Səhiyyə Mərkəzi tərəfindən 45-ə yaxın rəqəmsal təşəbbüs həyata keçirilib. Bunlardan 17-si Naxçıvan Muxtar Respublikasında reallaşdırılıb: «O cümlədən, ölkədə səhiyyə sahəsində funksiyaların icrasında mühüm rol oynayan texnoloji həllər tətbiq edilib. Bunlara «Dərman vasitələrinin izlənməsi və monitorinqi sistemi», «Elektron resept sistemi», «Elektron epikriz sistemi», «Elektron bülleten sistemi» və digər sistemlər aiddir. Lakin bu gün təqdim olunan «İntranet» sistemi xüsusi qürur mənbəyidir. «Agile» metodologiyası ilə hazırlanmış bu sistem dövlət landşaftında ilk dəfə olaraq dövlət qulluqçusunun iş yerini avtomatlaşdıran sistemdir».

Səhiyyə nazirinin müşavirinin sözlərinə görə, yaradılmış «İntranet» sistemi yalnız nazirliyin səlahiyyətli əməkdaşlarının giriş imkanına malik olduğu təhlükəsiz və qapalı şəbəkə mühitidir. Bu isə məlumatların məxfiliyini və idarəetməsini təmin edir: «Sistem nazirliyin daxili rəqəmsal resurslarına fasiləsiz çıxışa, iş materialları və sənədlərin strukturlaşdırılmış şəkildə saxlanmasına, əməkdaşlığa və sənəd mübadiləsinə imkan yaradır. «İntranet» sistemində iş sənədləri, xəbərlər, əməkdaşların əlaqə məlumatları, iclas otaqlarının rezervasiyası, tibbi reyestrlərə və tibbi məlumatların analitik modullarına çıxış və dövlət qulluqçusunun gündəlik fəaliyyəti ilə bağlı digər vacib məlumatlar mövcuddur».

Tədbir çərçivəsində həmçinin «İntranet»ə inteqrasiya olunmuş "Vətəndaşların sağlamlıq vəziyyətinin və səhiyyənin analizi və monitorinqi sistemi»nin təqdimatı olub.

Sistem səhiyyənin 17 sektoru üzrə statistik və real vaxtda əldə edilən məlumatlar əsasında ətraflı analitik məlumatları əldə etməyə imkan verir: «Bu məlumatlar vətəndaşların cari sağlamlıq vəziyyətinin müəyyənləşdirilməsində, səhiyyə sahəsindəki trendlərin aşkarlanmasında və sektorun strateji planlaşdırılmasında mühüm rol oynayacaq.

# «Böyük Qayıdış»a ürəkli dəstək

*Səhiyyə Nazirliyi Xankəndidə ikigünlük müayinə aksiyası keçirdi*

**«Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində Səhiyyə Nazirliyi əhali arasında kompleks tibbi müayinələrin, eyni zamanda, sağlamlığın təşviqi ilə bağlı maarifləndirici aksiyaların keçirilməsini davam etdirir.**

Nazirliyin təşkilatçılığı ilə keçirilən növbəti belə tədbir Xankəndi şəhərində baş tutub. Belə ki, Səhiyyə Nazirliyi Akademik C.Abdullayev adına Elmi Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) tibb heyəti tərəfindən Xankəndi sakinləri üçün ikigünlük kardioloji müayinələr təşkil edilib.







Tədbirin əsas məqsədi vətəndaşlar arasında ürək-damar sistemi xəstəliklərinin qarşısının alınması, miokard infarktı riskinin erkən aşkarlanması və müalicələrin təyin edilməsi olub.

ETKİ-nin kardioloq, nevropatoloq, endokrinoloq, tibb bacısı və laboratoriya üzrə mütəxəssislərindən ibarət briqadası tərəfindən əhaliyə tibbi baxış aparılıb, ExoKQ, EKQ müayinələri keçirilib. Eyni zamanda, qanda şəkər, ekspres üsul ilə xolesterinin səviyyəsi təyin olunub.

Ümumilikdə, ikigünlük kardioloji aksiya çərçivəsində 200-ə yaxın vətəndaş müayinədən keçirilib.

Tədbirin davamı olaraq ETKİ tərəfindən Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində maarifləndirmə aksiyası keçirilib. İnstitutun direktoru Gülnaz Dadaşova ətraflı təqdimatla çıxış edərək, müasir dövrdə sağlam həyat tərzinin təbliği və ürək xəstəliklərinin artması baxımından layihənin əhəmiyyətindən danışıb.

Aksiya zamanı ürək-damar xəstəliklərinə qarşı mübarizə aparmaq məqsədilə Qarabağ Universitetinin tələbələri üçün sağlam həyat tərzi və zərərli vərdişlərdən qorunma haqqında video-çarxlar nümayiş olunub. Eyni zamanda, tədbir çərçivəsində arzu edənlərin boy və çəkisi, arterial təzyiqi və nəbzi ölçülüb.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb və aksiya iştirakçılarına məlumatlandırıcı bukletlər paylanılıb.

# «SİMA İmza» ilə elektron səhiyyə xidmətləri daha əlçatan oldu




**SİMA yeni nəsil rəqəmsal imza «e-Səhiyyə» veb-portalı və eyniadlı mobil tətbiqə inteqrasiya edilib.**

Bu barədə Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumatda bildirilir ki, inteqrasiya nəticəsində vətəndaşlar üçün bir çox səhiyyə xidmətlərinə onlayn əlçatanlıq təmin edilib. Artıq vətəndaşlar adıçəkilən portala və ya mobil tətbiqə «SİMA İmza» ilə daxil olaraq xəstəlik vərəqələri, tibbi arayışlar, reseptlər, epikrizlər, peyvəndlər, analizlər, müayinə nəticələrinin alınması və digər xidmətləri onlayn şəkildə əldə edə bilərlər.

Bundan başqa, donor olmaq üçün məsafədən müraciətlərin göndərilməsi də «SİMA İmza» vasitəsilə mümkün olub. Müraciəti Səhiyyə Nazirliyinin Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzinin rəsmi saytında (odtkm.gov.az) formalaşdırmaq mümkündür.

Diqqətə çatdırılıb ki, vətəndaşlar qeyd edilən elektron xidmətləri əldə etmək üçün əvvəlcə «SİMA İmza» ilə «digital.login» sisteminə daxil olmalıdırlar.

SİMA rəqəmsal imza AZCON Holding şirkətlərindən olan «AzInTelecom» MMC tərəfindən yaradılıb. İndiyədək «SİMA İmza» tətbiqinin endirilmə sayı 4,2 milyonu ötüb. «SİMA İmza» mobil tətbiqini yükləməklə əldə olunan yeni nəsil rəqəmsal imza ilə vətəndaşların xidmət mərkəzlərindən asılılığına son qoyulur, qurumların iş yükü və xərcləri azalır. «SİMA İmza» tətbiqində qeydiyyat vətəndaşlar üçün ödənişsizdir.

Ətraflı məlumatı sima.az saytından və «157» Zəng mərkəzi ilə əlaqə saxlayaraq əldə etmək olar.

# Herontoloji Mərkəz Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında tibbi aksiya keçirib

**Səhiyyə Nazirliyinin Bakı Şəhər Herontoloji Mərkəzi Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında tibbi aksiya təşkil edib.**



Mərkəzin mətbuat xidmətindən verilən məlumata görə, aksiya zamanı 50-yə yaxın veteran pulsuz müayinə edilib, onlara tibbi xidmət göstərilib.

Qeyd olunub ki, bu, Bakı Şəhər Herontoloji Mərkəzi tərəfindən veteranlarla bağlı həyata keçirilən ilk tibbi-sosial aksiya deyil. Mərkəz bundan öncə də dəfələrlə həmin təşkilatda oxşar aksiyalar keçirib, ümumilikdə, yüzlərlə veterana pulsuz tibbi yardım göstərib.



Aksiyada mərkəzin direktoru Nailə Əhmədova analoji aksiyaların bundan sonra da mütəmadi şəkildə davam etdiriləcəyini vurğulayıb.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov aksiyaya görə Bakı Şəhər Herontoloji Mərkəzinə və onun kollektivinə bütün veteranlar adından minnətdarlığını bildirib.

**Qazaxıstanın Türküstan şəhərində Türk Dövlətləri Kardioloqlarının II Qurultayı və Qazaxıstan kardioloqlarının XVII Qurultayı keçirilib.**

# Azərbaycan Qazaxıstanda keçirilən Türk Dövlətləri Kardioloqlarının II Qurultayında iştirak edib




Ötən ilin aprelində Bakıda təşkil edilmiş Türk Dövlətləri Kardioloqlarının I Qurultayının davamı olaraq keçirilən II Qurultayın məqsədi ürək-damar xəstəliklərinin diaqnostikası, müalicəsi və profilaktikasında qazaxıstanlı və əcnəbi kardiologiya mütəxəssislərini birləşdirmək, öyrətmək, qarşılıqlı əlaqə yaratmaq və təcrübə mübadiləsi aparmaq, kardiologiya sahəsində yenilikləri işıqlandırmaq olub.

Tədbirdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Elmi Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) direktoru professor Gülnaz Dadaşovanın rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

İnstitutdan verilən məlumata görə, açılış mərasimində Gülnaz Dadaşova Türk Dövlətləri Kardioloqlarının Qurultayının sədrliyini təntənəli şəkildə Qazaxıstan tərəfinə təqdim edib. Professor qurultayın vacibliyindən danışıb, Türk dövlətləri arasında səhiyyə sahəsində də əlaqələrin möhkəmləndiyini vurğulayıb.

Professor G.Dadaşovanın sədrliyi ilə keçən «Türk Dövlətləri Kardioloqlarının Qurultayı» adlı sessiyada o, «Kardiologiyada nailiyyətlər: Azərbaycanda əlçatanlığın və innovasiyanın genişləndirilməsi», ETKİ-nin elmi katibi tibb üzrə fəlsəfə doktoru Təranə Cavadova «Ekologiya - ekoloji risk faktorları və ürək-damar xəstəlikləri» və tibb üzrə fəlsəfə doktoru Vüsal Hacıyev «Azərbaycanda TAVİ-nin tətbiqi. Keçid səhiyyə sistemində strateji və sistemli perspektiv» mövzularında çıxış ediblər.






Tədbir Qazaxıstan, Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Rusiya, Belarus, Almaniya, İtaliya, Portuqaliya və Avstraliyadan olan yüzdən çox görkəmli mütəxəssisi - aparıcı kardiologiya məktəblərinin və tədqiqat mərkəzlərinin nümayəndələrini bir araya gətirib. Qurultayın proqramı arterial hipertenziyadan tutmuş kardiogenetikada ən son yanaşmalara və süni intellektin tətbiqinə qədər geniş spektrli aktual məsələləri əhatə edib.

# «Böyük Qayıdış»la sağlam gələcək

## *Səhiyyə Nazirliyinin səyyar tibbi aksiyaları Xankəndi və Xocalıda*




**Səhiyyə Nazirliyi «Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı» çərçivəsində həmin bölgələrdə əhali arasında kompleks tibbi müayinələri, eyni zamanda, sağlamlığın təşviqi ilə bağlı maarifləndirici aksiyaların keçirilməsini davam etdirir.**



Nazirliyin təşkilatçılığı ilə keçirilən növbəti belə tədbir Səhiyyə Nazirliyi Elmi Tədqiqat Tibbi Bərpa İnstitutunun həkim heyəti tərəfindən Xankəndi şəhəri və Xocalı rayonunda keçirilib. İnstitutun artroloq, nevroloq, qastroenteroloq, dermatovenerolog, fizioterapevt-reabilitoloq və tibb bacılarından ibarət heyəti ikigünlük aksiya çərçivəsində əhali üçün səyyar müayinələr təşkil edib.

Səhiyyə Nazirliyinin mətbuat xidmətinin verdiyi məlumata görə, Elmi Tədqiqat İnstitutunun mütəxəssis briqadası tibbi reabilitasiyanın müxtəlif istiqamətləri - nevroloji, artroloji, qastroenteroloji və fizioterapevtik müayinələri keçirib. Eyni zamanda, nevroloqlar tərəfindən EMQ (elektromioqrafiya) və EEQ (elektroensefaloqrafiya) müayinələri aparılıb. Bundan əlavə, müayinələr zamanı səhhətində problem aşkarlanan sakinlərə peşəkar tibbi məsləhətlər verilib və müvafiq müalicələr təyin olunub.



Orta yaşlı əhalidə onurğa, sinir, dayaq-hərəkət, mədə-bağırsaq, dəri-zöhrəvi, həmçinin ümumi serebrovaskulyar xəstəliklərin aşkar edilməsi, 3-16, 16-65 yaşlı əhali arasında skolioz və digər vertebrogen problemlərin diaqnostika və bərpası üzrə müayinələr aparılıb.

Aksiya iştirakçılarına İnstitutun fizioterapevt və reabilitoloqları tərəfindən profilaktik tövsiyələr verilib. Bildirilib ki, fizioterapiya zamanı yaş, əsas və yanaşı gedən xəstəliklər və həyat fəaliyyəti nəzərə alınmalıdır. Eyni zamanda, medikamentoz terapiya ilə yanaşı, fizioterapiyanın həm təbii, həm də süni fiziki faktorlarını fərdi olaraq təyin etməklə, sağlamlığın erkən əldə olunmasına köməklik etmək olar.

Aksiya zamanı 200-ə yaxın vətəndaş müayinələrdən keçirilib.

Tədbirin çərçivəsində ETTBİ tərəfindən Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində tələbələr üçün maarifləndirmə və müayinə aksiyası keçirilib. Aksiya iştirakçılarına İnstitutun fizioterapevt və reabilitoloqları tərəfindən profilaktik tövsiyələr verilib.

# Səhiyyə Nazirliyi yay mövsümünə hazırlıqla bağlı çimərlikləri yoxlayıb




**Yay mövsümünə hazırlıq çərçivəsində Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən Bakı, Sumqayıt, Mingəçevir şəhərləri, eləcə də Lənkəran, Astara və Xaçmaz rayonlarında yerləşən çimərliklərdə sanitar-gigiyenik vəziyyətin qiymətləndirilməsi məqsədilə monitorinqlər aparılıb.**

Monitorinqlər zamanı dəniz suyunun fiziki-kimyəvi və bakterioloji göstəriciləri laboratoriya üsulları ilə tədqiq edilib. Araşdırmalar Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi və Dövlət Su Ehtiyatları Agentliyi yanında Suların İstifadəsinə və Mühafizəsinə Dövlət Nəzarət Xidmətinin mütəxəssisləri ilə birgə həyata keçirilib.

May ayından etibarən aparılan müayinələrə Bakı şəhərinin Buzovna, Mərdəkan, Şüvəlan, Türkan, Hövsan, Novxanı, Görədil, Nardaran, Bilgəh, Pirşağı, Şıx, Sahil kimi çimərlik əraziləri, eləcə də Sumqayıt, Lənkəran, Astara və Xaçmaz rayonlarının sahilboyu əraziləri daxil edilib.

Belə ki, Suraxanı rayonunun Hövsan, Xəzər rayonunun Türkan, Səbail rayonunun Şıx, Qaradağ rayonunun Sahil çimərlikləri ilə yanaşı, Xaçmaz rayonunun Niyazoba kəndi, Lənkəran rayonunun Aşağı Nüvədi qəsəbəsi və Sütəmurdov kəndində yerləşən çimərliklərdən götürülən su nümunələrində normadan artıq bakterioloji çirklənmə aşkarlanıb.

Bu ərazilərdə suyun çirklənmə səviyyəsinin əhalinin sağlamlığı üçün təhlükə yaratdığı və yoluxucu xəstəliklərin yayılmasına səbəb ola biləcəyi bildirilib. Bu səbəbdən qeyd olunan çimərliklərdə istirahət etmək tövsiyə olunmur.

Monitorinqin nəticələri əsasında Azərbaycan Respublikasının "Su Məcəlləsi"nin 42-ci maddəsinə uyğun olaraq, Dövlət Su Ehtiyatları Agentliyinə çimərliklərdən istifadənin məhdudlaşdırılması və ya dayandırılması ilə bağlı tədbirlərin görülməsi üçün rəsmi müraciət hazırlanıb.

Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən çimərliklərdə monitorinqlər davam etdirilir.

# Respublika Qan Bankında Ümumdünya Qan Donoru Günü qeyd edilib

**Səhiyyə Nazirliyi Respublika Qan Bankında 14 İyun - Ümumdünya Qan Donoru Günü münasibətilə tədbir keçirilib.**



AZƏRTAC xəbər verir ki, tədbirdə Respublika Qan Bankının icraçı direktoru Elxan Nağıyev bu günün mahiyyəti, qan donorluğunun əhəmiyyəti barədə danışıb. Bildirib ki, son illər ölkəmizdə səhiyyə sahəsində mühüm nailiyyətlər əldə olunub: «Bu gün ölkəmizdə səhiyyənin inkişafı, əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən genişmiqyaslı islahatların əsasında Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın diqqət və qayğısı dayanır. Səhiyyənin bütün istiqamətləri üzrə, o cümlədən qan donorluğu sahəsində mühüm addımlar atılıb», - deyə icraçı direktor qeyd edib.



O vurğulayıb ki, donor qan banklarının maddi-texniki bazasının gücləndirilməsi, müasir tibbi avadanlıqlarla təmin olunması, yeni texnologiyaların tətbiqi bu sahədə keyfiyyətin və təhlükəsizliyin artırılmasına xidmət edir.

Səhiyyə Nazirliyinin Səhiyyə siyasəti şöbəsinin müdiri Ramik Quliyev çıxışında bildirib ki, Ümumdünya Qan Donoru Günü təhlükəsiz qan və qan komponentlərinə olan tələbata ictimaiyyətin diqqətini cəlb etmək, bu sahədə maarifləndirmə işini genişləndirmək, eyni zamanda, öz qanı ilə ehtiyacı olan şəxslərin həyatını xilas edən donorlara ehtiram nümayiş etdirmək məqsədi daşıyır.

Tədbirdə könüllü qanvermə hərəkatına göstərilən dəstəyə görə fəxri fərmanlar, təşəkkürnamələr təqdim edilib, qan xidməti sahəsində əməkdaşlıq edən qurumlara və fərdi donorlara minnətdarlıq ifadə edilib.

Tədbirdə bir sıra dövlət və özəl təşkilatların əməkdaşları, fərdi donorlar iştirak ediblər.

Xatırladaq ki, 14 İyun - Ümumdünya Qan Donoru Günü 2005-ci ildə təsis edilib. Həmin ilin mayında Cenevrədə Ümumdünya Səhiyyə Assambleyasının 88-ci sessiyasında 14 iyunun könüllü qan verən donorların şərəfinə Ümumdünya Qan Donoru Günü kimi təsis olunması barədə qərar qəbul edilib. Həmin günün iyunun 14-də qeyd edilməsi Avstriyadan olan məşhur həkim-immunoloq, qan qruplarını kəşf etmiş Nobel mükafatı laureatı Karl Landşteynerin doğum günü ilə əlaqədardır.

Ümumdünya Qan Donoru Günü təmənnasız qan donorlarının şərəfinə qeyd olunan xüsusi gündür. Təhlükəsiz qan və qan məhsulları barədə məlumatlılığın artırılması bu sahədə başlıca hədəflərdən biridir.

Hər il dünyada təxminən 118,5 milyon donor qeydiyyatdan keçir və onların təxminən yarısı dünya əhalisinin 16 faizini təşkil edən yüksəkgəlirli ölkələrdə yaşayır. Başqa sözlə desək, 62 ölkə könüllülərin təmənnasız verdiyi qan hesabına tam qan ehtiyatlarına malikdir.

Ölkəmizdə də mütəmadi olaraq qanvermə aksiyaları təşkil edilir. Hər il müxtəlif vaxtlarda, xüsusilə Aşura mərasimlərində kütləvi qanvermə aksiyaları keçirilir.

Azərbaycanda, eləcə də dünyada ən çox rast gəlinən O (I) Rh+ və A (II) Rh+ qan qruplarıdır. Bu qan qruplarından olan insanların çox olması qan donorluğunda da öz təsirini göstərir. Çünki xəstələrin əhəmiyyətli bir hissəsi bu qan qruplarına aiddir. Qan qrupundan asılı olmayaraq, hər zaman donorluğa ehtiyac var. Qan donoru kimi sağlam insanların qəbul ediləcəyini nəzərə alaraq, imtina meyarları iki qrupa bölünür: daimi və müvəqqəti. Daimi imtina meyarlarına Addison xəstəliyi, hepatit (B və C), QİÇS (İİV), sifilis, xroniki ürək-damar, böyrək, qaraciyər çatışmazlığı olan şəxslər, xroniki nefrit, kardiomiopatiya, orqan transplantasiyası, irsi qan xəstəlikləri, anemiyası olanlar və digər tibbi göstərişlər daxildir. İmtina meyarları istisna olmaqla, yaşı 18-dən 65-dək və çəkisi 50 kiloqramdan artıq olan hər kəs donor ola bilər.

Qan və qan komponentləri irsi qan xəstəlikləri (talassemiya, hemofiliya və s.), immun çatışmazlığı, ağır anemiya, qan və sümük iliyi xəstəliklərindən əziyyət çəkən, fövqəladə hallar, fəlakət və qəzalarda travma alanlar, tibbi və cərrahi prosedurlardan keçən xəstələrə, hamiləlik və doğuşla əlaqəli qanaxması olan qadınlara sərf olunur. Ona görə də qana daim ehtiyac var və alınandan sonra 42 gün ərzində istifadə edilməlidir.

Qan verməmişdən 72 saat əvvəl qanduruldan dərmanlar qəbul edilməməli, azı bir sutka əvvəldən alkoqol qəbul olunmamalıdır. Qızardılmış, istiotlu, duzlu, hisə verilmiş yeməklərdən, həmçinin banan, yumurta, süd məhsulları və yağdan istifadə etmək məsləhət görülmür. Yaxşısı budur ki, qidalanmaq üçün şirinçay, kompot, mineral su, mürəbbə, çörək, suxarı, suda qaynadılmış yarma, balıq, tərəvəz və meyvədən istifadə olunsun.

Qan verdikdən sonra isə 30 dəqiqə ərzində avtomobil idarə etmək tövsiyə edilmir. Həmçinin bədənin bərpası üçün şokolad yemək, şirə, kompot və ya çay içmək lazımdır. Bundan əlavə, gün ərzində ağır fiziki işlərlə (intensiv məşq, yük qaldırma) məşğul olmaq məqsədəuyğun sayılmır. Eyni zamanda, tütünçəkmə və spirtli içkilər kimi zərərli vərdişlərdən uzaq durmaq tövsiyə olunur.

Donor olmaq, başqasının yaşaması üçün ən zəruri komponentlərdən olan qan vermək çox xeyirxah və faydalı işdir. Aparılan tədqiqatlar sübut edib ki, 400-450 millilitr qan vermək sağlam insanın səhhətinə və əmək qabiliyyətinə mənfi təsir etmir. Əksinə, təkrar qanvermə qanda şəkərin, zərərli lipoproteinin, qan təzyiqinin, ürək döyüntüsünün azalmasına kömək edir, ürək xəstəlikləri riskini azaldır.

Ən əsası isə, hər gün baş verən qəzalarda, əməliyyatlarda, qana ehtiyac yarananda donor bir və ya bir neçə nəfərin həyatını xilas edə bilər.

**ADA Universitetində 7 İyun - Ümumdünya Qida Təhlükəsizliyi Gününə həsr edilmiş «Elm fəaliyyətdədir» adlı konfrans keçirilib.**

# Təhlükəsiz qida insan sağlamlığının əsas şərtlərindən biridir

*Ümumdünya Qida Təhlükəsizliyi Günü ilə bağlı beynəlxalq tədbir keçirilib*






AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi (AQTA), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi və ADA Universitetinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə beynəlxalq təşkilatlar, dövlət qurumları, elm və təhsil ocaqları, habelə beynəlxalq mütəxəssislər iştirak edib.

Konfransın rəsmi açılış mərasimində AQTA-nın sədr müavini Zəkiyyə Mustafayeva qeyd edib ki, təhlükəsiz qida həyatın davamlılığı və insan sağlamlığının qorunması üçün əsas şərtlərdən biridir. İnsan, heyvan, bitki və ətraf mühit sağlamlığının bir-biri ilə əlaqəsini əks etdirən «Vahid Sağlamlıq» konsepsiyası çərçivəsində qida təhlükəsizliyinə kompleks şəkildə yanaşmaq yalnız insan sağlamlığını deyil, bütövlükdə ekosistemin dayanıqlılığını təmin etmək baxımından həlledici əhəmiyyət daşıyır: «Statistika göstərir ki, hər il dünyada təxminən 600 milyon nəfər qida mənşəli xəstəliklərə yoluxur. Təqribən 420 min insan isə təhlükəli və ya çirklənmiş qidanın istehlakı nəticəsində həyatını itirir. Xüsusilə 5 yaşdan kiçik uşaqlar bu təhlükədən daha çox əziyyət çəkirlər. Onlar qida mənşəli xəstəliklərdən əziyyət çəkənlərin 40 faizini təşkil edir və hər il təxminən 125 min uşaq bu səbəbdən dünyasını dəyişir».

AQTA-nın sədr müavini bildirib ki, statistika təhlükəli və ya çirklənmiş qidanın yalnız insan sağlamlığı üçün deyil, həm də iqtisadi rifah üçün ciddi təhdid yaratdığını göstərir. Bu təhlükə xüsusilə qadınlar, uşaqlar, münaqişədən zərər çəkmiş əhali və miqrantlar kimi həssas və marginal qruplara daha çox təsir edir.

Zəkiyyə Mustafayeva qida təhlükəsizliyinin təmin olunmasında elmin rolunun mühüm və çoxşaxəli olduğunu deyib: «Bu sahədə elmi nailiyyətlər və texnoloji yeniliklər qida məhsullarının təhlükəsiz istehsalı, saxlanması, daşınması və istehlakı proseslərində risklərin minimuma endirilməsinə imkan yaradır. Mikrobiologiya, biotexnologiya, kimya, qida mühəndisliyi və digər əlaqəli elmi sahələr vasitəsilə mikroorqanizmlərin, toksinlərin və zərərli maddələrin vaxtında aşkarlanması, risklərin qiymətləndirilməsi və qabaqlayıcı tədbirlərin görülməsi mümkün olur.

Həmçinin «Vahid Sağlamlıq» yanaşması çərçivəsində qida təhlükəsizliyinə kompleks şəkildə yanaşmaq yalnız insan sağlamlığını deyil, bütövlükdə ekosistemin dayanıqlılığını təmin etmək baxımından həlledici əhəmiyyət daşıyır. Bu yanaşma həm milli, həm də beynəlxalq miqyasda qabaqlayıcı tədbirlərin planlaşdırılmasında strateji rol oynayır».

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycan Respublikasındakı nümayəndəsi Nasar Hayat güclü, inklüziv və dayanıqlı qida təhlükəsizliyi sistemlərinin qurulmasına sadiq olduqlarını bildirib: «Bu səylərdə sahib olduğumuz ən güclü alətlərdən biri FAO və Ümumdünya Səhiyyə Təşkilatının birgə təşəbbüsü olan Kodeks Alimentarius Komissiyasıdır. Azərbaycanla əməkdaşlığımız bizi qürurlandırır».

ADA Universitetinin prorektoru Elkin Nurməmmədov Kənd təsərrüfatı və qida elmləri fakültəsinin yeni yaradılmış akademik proqramları haqqında danışıb. O, bu proqramların Boloniya Universiteti ilə əməkdaşlıq çərçivəsində hazırlandığını qeyd edib.

Kodeks Alimentarius Komissiyasının sədr müavini Betül Vazgeçer isə iştirakçılara videomüraciətində Azərbaycanın kodeks fəaliyyətlərində artan rolunu yüksək qiymətləndirib.

Daha sonra tədbirdə «Qida sistemlərinin rolu: insan, heyvan və ətraf mühit sağlamlığının inteqrasiyası» və «Qida təhlükəsizliyi və keyfiyyətinin təmin olunmasında ali təhsil sisteminin rolu: gələcək nəsil mütəxəssislər və innovativ elmi yanaşmalar» mövzusunda panel müzakirələr təşkil olunub.

Konfrans çərçivəsində uşaqların sağlam qidalanması ilə bağlı rəsm əsərlərindən ibarət sərgi də nümayiş etdirilib.

# Stomatologiya yenilikləri: dişin ağrısız və... həkimsiz müalicəsi

**Uşaq vaxtından hər kəsin ən yaddaqalan ağrısı diş ağrısıdır. Stomatoloqun qəbuluna getmək tək uşaqlar üçün deyil, bir çox hallarda böyüklər üçün də faciədir.**




İnsanların əksəriyyəti üçün bir nömrəli düşmən olan ağrı ilə mübarizədə təxminən 180 il əvvəl böyük sıçrayış olub. Belə ki, məhz həmin vaxt ABŞ-nin Boston şəhərində həkimlər ilk dəfə anesteziya altında əməliyyat ediblər.

Ötən yay isə yenə də Bostonda stomatoloqun iştirakı olmadan stomatoloji əməliyyat aparılıb!

Süni intellekt əsasında avtomatlaşdırılmış stomatoloji texnologiyalar sahəsində lider olan “Perceptive” Boston şirkəti bəyan edib ki, dünyada ilk dəfə olaraq özünün orijinal robotlaşdırılmış sistemindən istifadə etməklə insan üzərində tam avtomatlaşdırılmış stomatoloji prosedur həyata keçirib.

Bu hadisə stomatoloji yardım sahəsində irəliyə doğru böyük addımdır. Bu prosedur qabaqcıl vizualizasiyanı, süni intellekti və robot texnikasını inteqrasiya etməklə stomatoloji müalicənin yeni növünü yaradıb.

### Bu necə baş verir?

Robot-stomatoloq özündə üç əsas tərkib hissəsini ehtiva edən kompleks sistemdir. Bunlardan biri çənənin, dişlərin, damaqların və ağız boşluğunun digər toxumalarının dəqiq həcmli təsvirini almağa imkan verən optik kogerent tomoqrafiya texnologiyası ilə qabaqcıl 3D əl skaneridir. Təhlükəli rentgen şüaları əvəzinə bu skaner işıq şüaları dəstəsindən istifadə edir.

Süni intellekt əsaslı proqram təminatı vizual məlumatları təhlil edir, bununla problemin tipini və dəqiq yerini, eləcə də müalicə üsulunu müəyyənləşdirir.

Robotlaşdırılmış əl alınmış təsvirlər əsasında və «canlı» stomatoloqun təlimatını nəzərə almaqla əməliyyatı həyata keçirir.

### İlk əməliyyat necə keçib?

Robotun ilk işi pasiyentə diş qapağının yerləşdirilməsi proseduru olub və o, bu işin öhdəsindən cəmi 15 dəqiqə ərzində uğurla gəlib. Adi halda belə əməliyyat təxminən iki saat vaxt və iki dəfə həkim qəbuluna gəlmək tələb edir.

Nəzərə almaq lazımdır ki, robot müstəqil fəaliyyət göstərmir. Ağız boşluğu skan olunduqdan sonra stomatoloq pasiyentlə müalicə planını müzakirə edir, o, prosedura razılıq verdikdən sonra isə robotlaşdırılmış sistemi konkret pasiyentə uyğun tənzimləyir. Öz növbəsində, «robot əl» praktik təlimatları dəqiq yerinə yetirir.

«Facebook»un yaradıcısının atası, 30-illik stomatoloji təcrübəsi olan həkim Edvard Zakerberq bu kəşflə bağlı təəssüratlarını bölüşərək deyib: «Robotlaşdırılmış sistem elə yaradılıb və testdən keçirilib ki, hətta pasiyent əməliyyat vaxtı tez-tez hərəkət etdikdə belə, həkim proseduru təhlükəsiz icra etsin».

### Bu nəyə gərəkdir?

Diş həkiminin iş saatlarına dəfələrlə qənaət edən, müalicənin keyfiyyətini yaxşılaşdıran bu üsul həm də əməliyyat vaxtını azaltmaqla onun qiymətini ucuzlaşdırır, bu isə stomatoloji yardımı aztəminatlı ailələr üçün əlçatan edir.

Bununla belə, stomatologiyanın kütləvi robotlaşdırılması hələ gələcəyin işidir. Bir əməliyyatın uğurla keçirilməsinə baxmayaraq, bu robot hələ ki ABŞ-nin Ərzaq məhsullarına və dərmanlara nəzarət xidməti (FDA) tərəfindən təqdir edilməyib. Robotu icad etmiş şirkət özü isə onun təsdiqlənmək üçün FDA-ya təqdim olunacağı dəqiq tarixi açıqlamır. Ən nikbin hesablamalara görə, yeni qurğu üzərində işlərin yekunlaşdırılması və onun praktik səhiyyə praktikasına tətbiqi üçün illər lazım ola bilər.

Hətta «dantist robotun» tətbiqinə ən yaxın vaxtlarda icazə verilsə belə, köklü surətdə tam yeni olan bu avadanlığın alınması və quraşdırılması üçün, eləcə də onuna işləyə bilən personalın hazırlanmasına böyük sərmayələr tələb olunacaq. Bu isə xüsusilə dünyanın kasıb bölgələri üçün çətin problem ola bilər.

# İki ölkənin tənzimləyici qurumları arasında qarşılıqlı anlaşma Memorandumu imzalanıb



**Müasir dünyada əczaçılıq sahəsi getdikcə qloballaşır və bu amil beynəlxalq əməkdaşlığı daha da zəruri edir. Bu səbəbdən Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzinin (AEM) rəhbərliyi digər ölkələrin əczaçılıq sahəsinin tənzimləyici qurumları ilə əməkdaşlığının genişləndirilməsini daim diqqətdə saxlayır. AEM-dən verilən məlumata görə, artıq Qazaxıstan, Belarus, Ukrayna və Özbəkistanın əczaçılıq sahəsində requlyator qurumları ilə qarşılıqlı anlaşma və əməkdaşlıq haqqında Memorandum imzalanıb və əczaçılıq sahəsinin bir sıra istiqamətləri üzrə əməkdaşlıq dinamik olaraq inkişaf etdirilir.**

Bu prosesin davamı olaraq, Özbəkistan Respublikasının Daşkənd şəhərində Amerika Farmakopeyasının və Özbəkistan Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə baş tutan səfər çərçivəsində Özbəkistan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan Əczaçılıq Məhsullarının Təhlükəsizliyi Mərkəzi və Azərbaycan Respublikası Səhiyyə Nazirliyi «Analitik Ekspertiza Mərkəzi» publik hüquqi şəxsi arasında qarşılıqlı anlaşma və əməkdaşlıq Memorandumu imzalanıb.

Sənəddə dərman və tibb vasitələrinin ekspertizası, onların keyfiyyətinə nəzarətin təkmilləşdirilməsinə dair təcrübə mübadiləsi, dərman və tibb vasitələrinin qeydiyyatı və dövriyyəsi sahəsində beynəlxalq standartların tətbiq edilməsinə dair tövsiyələrin hazırlanmasında dəstək, dərman vasitələri ilə bağlı farmakonəzarətin həyata keçirilməsi, dərman və tibb vasitələrinin əlavə təsirlərinə monitorinqin keçirilməsi sahəsində məlumat mübadiləsi, elmi və praktik tədbirlərdə, konfrans, simpozium, seminar və forumlarda qarşılıqlı iştirak və s. istiqamətlərdə əməkdaşlıq və təcrübə mübadiləsinin təmin edilməsi öz əksini tapıb.

# Tibbi Profilaktika İnstitutu ilə ATU elm sahəsində əməkdaşlıq edəcək




**Səhiyyə Nazirliyi V.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutu ilə Azərbaycan Tibb Universiteti arasında elmi əməkdaşlığa dair memorandum imzalanıb.**

Görüş zamanı beynəlxalq səviyyəli birgə tədqiqatların aparılması, əldə ediləcək mühüm elmi nəticələrin müxtəlif konfrans və elmi simpoziumlarda məruzə edilməsi, eyni zamanda, nüfuzlu xarici jurnallarda dərc olunması və qarşılıqlı təcrübə mübadiləsi imkanları müzakirə olunub.

Memorandum hər iki qurumun rəhbərlərinin iştirakı ilə imzalanıb.

Bu əməkdaşlıq gələcəkdə hər iki qurum arasında elmi və praktiki fəaliyyətin daha da inkişaf etdirilməsinə xidmət edəcək.

# Əl gigiyenası üzrə təlim keçirilib



Səhiyyə Nazirliyi V.Axundov adına Elmi Tədqiqat Tibbi Profilaktika İnstitutunda profilaktika və infeksion nəzarət fəaliyyəti çərçivəsində «Əl gigiyenası» mövzusunda maarifləndirici təlim təşkil olunub.

İnstitutdan verilən məlumata görə, iki gün davam edən treninqin ilk günü təlim institutun klinik şöbəsində çalışan həkim heyəti, ikinci günü isə tibb bacıları üçün keçirilib.

Təlimçi - İnfeksiyaların Profilaktikası və İnfeksion Nəzarət (İPİN) komissiyasının üzvü, dosent Lalə Rüstəmova çıxış edərək səhiyyə xidməti ilə əlaqəli infeksiyalar, multirezistent mikroorqanizm ştamları və onların qarşısının alınmasında düzgün əl gigiyenasının əvəzsiz rolundan bəhs edib.

Təqdimat çərçivəsində düzgün əl gigiyenası texnikası barədə videotəlim nümayiş etdirilib. Təlimin praktik hissəsində isə iştirakçılar öyrəndikləri texnikaları canlı olaraq tətbiq ediblər.

Bu cür maarifləndirici tədbirlər səhiyyə işçiləri arasında infeksion nəzarət tədbirlərinin effektivliyini artırmaqla yanaşı, pasiyent təhlükəsizliyinin təmin olunmasına da mühüm töhfə verir.

# May ayında 38 aptekdə yoxlama aparılıb

**Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində yoxlamalar aparır.**

Mərkəzdən verilən məlumata görə, may ayı ərzində Bakı şəhəri üzrə 12, ölkənin digər şəhər və rayonlarında isə 26 aptek olmaqla, ümumilikdə, 38 aptekdə yoxlama aparılıb.

Aparılan yoxlamalar nəticəsində 4 aptekdə nöqsanlar aşkarlanıb və İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3 maddələri üzrə protokollar tərtib edilib.




# Ümumdünya Tütünsüz Gününə həsr olunmuş maarifləndirici aksiya keçirilib




**Səhiyyə Nazirliyi İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) tərəfindən «ZefirMall» ticarət mərkəzində əhali üçün maarifləndirici aksiya təşkil edilib. İSİM-dən verilən məlumata görə, aksiyanın məqsədi tütünçəkmə və digər zərərli vərdişlərin sağlamlığa mənfi təsirləri barədə əhali arasında məlumatlılığın artırılması olub.**

Ümumdünya Tütünsüz Gününə həsr olunmuş aksiya çərçivəsində iştirakçılar ilkin müayinələrə (təzyiq və nəbzin ölçülməsi, qanda şəkərin miqdarının təyin edilməsi) dəvət ediliblər, onlara həkim və ictimai səhiyyə mütəxəssisləri tərəfindən tövsiyələr verilib.

Vurğulanıb ki, son vaxtlar dünya ölkələrində qeyri-infeksion, o cümlədən ürək-damar sistemi xəstəliklərindən əziyyət çəkənlərin sayının çoxalması bir sıra amillərlə sıx bağlıdır. Əsas risk amillərinə isə tütünçəkmə və digər zərərli vərdişlərə aludəlik, fiziki passivlik və qeyri-sağlam qidalanma aiddir. Xəstəliklərin əsas risk amillərinin qarşısını almaq üçün iştirakçılara sağlam həyat tərzi seçmək təşviq edilib, bu mövzulara dair geniş çeşiddə maarifləndirici materiallar paylanılıb.







# «Həmkardan həmkara qayğı ilə»

*Laçında bu layihənin növbəti mərhələsi keçirilib*





**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) təşkilatçılığı, Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və «Referans Medical Group»un dəstəyi ilə keçirilən «Həmkardan həmkara qayğı ilə» sosial layihəsinin növbəti mərhələsi Laçın rayonunda keçirilib.**

AZƏRTAC bildirir ki, Laçın Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən ödənişsiz səyyar tibbi müayinə zamanı peşəkar həkim heyəti tərəfindən 7 tibbi xidmət üzrə müayinələr aparılıb. İki gün ərzində Laçın rayonunun ümumilikdə 360 sakininə tibbi xidmət göstərilib. Səhhətində problem aşkarlanan sakinlərə tibbi məsləhətlər verilib, müvafiq müalicələr təyin olunub.

Müayinəyə gələn uşaqlara Konfederasiya tərəfindən hədiyyələr verilib.

Ölkəmizin dağ və dağətəyi rayonlarında reallaşdırılan layihənin məqsədi AHİK üzvlərinin sağlamlığını qorumaq, tibbi xidmətlərə əlçatanlığı daha da artırmaq və dövlətimizin sosial siyasətinə töhfə verməkdir.

## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏSİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

### Milli Onkologiya Mərkəzi

*Ümumi onkologiya bölməsi:*
Aparıcı elmi işçi - 1.0
*Onkoginekologiya bölməsi:*
Kiçik elmi işçi- 1.0
*Molekulyar onkologiya bölməsi:*
Kiçik elmi işçi- 1.0

*Ünvan: H.Zərdabi küç., 79b*
*Telefon: 537-08-11*

### K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu

*Anesteziologiya və reanimatologiya üzrə elmi şöbə:*
Böyük elmi işçi - 2.0
Kiçik elmi işçi - 1.0
*Uşaq cərrahiyyəsi üzrə elmi şöbə:*
Şöbə müdiri - 1.0
Böyük elmi işçi - 1.0
Kiçik elmi işçi - 2.0

*Ünvan: Bəsti Bağırova küç. 15,*
*Telefon: 495-21-00*

Baş redaktor:
N.MƏCİDOVA
Baş redaktorun müavini:
S.NƏBİYEVA
Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.
Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92
Ünvan:
Həsən bəy Zərdabi küç., 96.
3-cü mərtəbə, 6-cı otaq
Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*